**https://doi.org/10.58225/tim.2025-4-267-274**

**N.S.Ocaqlı**
***doktorant, Azərbaycan Kooperasiya Universiteti***
***nojagli@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 20.11.2025*
*The article was received by editorial board on 20.11.2025*
*Статья принята к печати 20.11.2025*

# AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFININ MÖVCUD VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

*Məqalə son 5 ildə Azərbaycanın iqtisadi inkişafının mövcud vəziyyətini makroiqtisadi sabitlik, neft-qaz sektorundakı dəyişikliklər, qeyri-neft sənayesinin genişlənməsi, kənd təsərrüfatı və xidmət sahələrində baş verən struktur transformasiyalar əsasında qiymətləndirir. Tədqiqat göstərir ki, iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft sektorudur və diversifikasiya siyasəti real nəticələr verməyə başlamışdır. Regionların bərpası, rəqəmsal xidmətlərin artması və turizmin canlanması ümumi inkişaf dinamikasını gücləndirmişdir. Məqalə Azərbaycanın uzunmüddətli inkişafı üçün innovasiya, insan kapitalı və yaşıl iqtisadiyyatın prioritet rolunu vurğulayır.*

***Açar sözlər:*** *makroiqtisadi sabitlik, qida sənayesi, ixrac potensialı, iqtisadi tənəzzül, infrastruktur.*

## GİRİŞ

Azərbaycan Respublikasının iqtisadi inkişafı son otuz ildə çoxşaxəli transformasiya mərhələlərindən keçmişdir. Müstəqilliyin ilk illərindən başlayaraq iqtisadi tənəzzül, siyasi qeyri-sabitlik, enerji və infrastruktur çatışmazlığı kimi problemlər müşahidə olunsa da, 1994-cü ildə "Əsrin Müqaviləsi"nin imzalanması ilə başlayan yeni mərhələ ölkənin iqtisadi strukturunda fundamental dəyişikliklərə yol açmışdır. Neft gəlirlərinin kəskin artması, beynəlxalq enerji korporasiyalarının ölkəyə cəlb edilməsi və dövlət investisiya proqramlarının genişləndirilməsi sayəsində Azərbaycan sürətli iqtisadi yüksəliş dövrünə keçmişdir. 2000–2014-cü illər ərzində ÜDM real olaraq 3 dəfədən çox artmış, ölkə adambaşına düşən gəlir səviyyəsinə görə orta gəlirli dövlətlər qrupuna daxil olmuşdur.

Lakin iqtisadiyyatın uzun müddət neftdən yüksək asılılıqla inkişaf etməsi struktur problemlərin möhkəmlənməsinə səbəb olmuşdur. Neft qiymətlərinin kəskin enişi ilə müşayiət olunan 2015-ci il böhranı Azərbaycan iqtisadiyyatında yeni reallıqlar yaratdı və diversifikasiya, qeyri-neft sektorunun genişləndirilməsi, makroiqtisadi sabitliyin gücləndirilməsi kimi islahatların vacibliyini ön plana çıxardı. Bunun ardınca Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Strateji yol xəritələri", 2030-cu il milli prioritetləri və genişmiqyaslı institusional transformasiya proqramları Azərbaycan iqtisadiyyatının dayanıqlı və inklüziv inkişaf modelinə keçidini sürətləndirdi [6, s.81].

Son beş il - 2019–2024-cü illər - Azərbaycan iqtisadiyyatının post-pandemiya bərpası, qeyri-neft sektorunun prioritetləşdirilməsi, Qarabağ və Şərqi Zəngəzurun dirçəlişi, regional nəqliyyat-logistika layihələrinin genişlənməsi və enerji keçidi strategiyalarının tətbiqi dövrü kimi xarakterizə olunur. Bu illərdə iqtisadi artım tempində dalğalanmalar müşahidə olunsa da, struktur baxımından mühüm dəyişikliklər baş vermişdir. Hazırda Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti bir neçə əsas meyar üzrə qiymətləndirilə bilər:

√makroiqtisadi sabitlik;

√enerji və qeyri-neft sektorlarının dinamikası;

√sənaye və kənd təsərrüfatı sahələrinin inkişafı;
√xidmət sektorunun genişlənməsi;
√regionların bərpası;
√investisiya mühiti;
√rəqəmsal transformasiya;
√insan kapitalının vəziyyəti.

**Makroiqtisadi vəziyyət və iqtisadi artımın dinamikası**

Azərbaycanın makroiqtisadi sabitliyi son 5 ildə ardıcıl şəkildə qorunmuşdur. İnflyasiya, valyuta stabilliyi, büdcə dayanıqlılığı və xarici ticarət balansı sahəsində həyata keçirilən siyasətlər pandemiya və geosiyasi risklərə baxmayaraq iqtisadiyyatın ümumi sabitliyini təmin etmişdir. 2019–2024-cü illər arasında ÜDM-in artım tempi aşağıdakı kimi olmuşdur:

**Cədvəl 1**

**Ümumi daxili məhsulun artım dinamikası, %**

| İl | ÜDM artım tempi (%) |
|---|---|
| 2019 | 02.May |
| 2020 | –4.3 |
| 2021 | 05.Jun |
| 2022 | 04.Sep |
| 2023 | 01.Jan |
| 2024* | 03.Feb |

***Mənbə:****https://www.stat.gov.az/news/index.php?lang=az&id=5100#:~:text=İlkin%20m%C9%99lumatlara%20%C9%99sas%C9%99n%202021,ümumi%20daxili%20m%C9%99hsul%20istehsal%20olunmuşdur*

Cədvəl 1-dəki göstəricilərdən göründüyü kimi, pandemiya Azərbaycan iqtisadiyyatına ciddi təsir göstərmişdir. Lakin 2021-ci ildən etibarən bərpa dövrü başlamış və qeyri-neft sektorunda genişlənmə müşahidə edilmişdir. Son illərdə iqtisadi artımın əsas mənbəyi məhz qeyri-neft sahələri olmuşdur. 2022-ci ildə qlobal ərzaq qiymətlərinin yüksəlməsi və logistika zəncirinin pozulması səbəbindən Azərbaycanda inflyasiya 13%-ə qədər yüksəlmişdir. Lakin 2023 və 2024-cü illərdə Mərkəzi Bankın sərt pul siyasəti nəticəsində inflyasiya 6–7% diapazonuna enmişdir. Bu göstəricilər regional ölkələrlə müqayisədə daha əlverişli hesab olunur. Neft-qaz gəlirlərinin dalğalanması fonunda dövlət büdcəsinin dayanıqlılığı Dövlət Neft Fondu tərəfindən təmin edilir. Büdcə xərclərinin optimallaşdırılması, investisiya layihələrinin mərhələli icrası və qeyri-neft gəlirlərinin artması fiskal sabitliyə müsbət təsir göstərmişdir.

**Neft-qaz sektorunun mövcud vəziyyəti**

Neft-qaz sektoru Azərbaycanın iqtisadiyyatında hələ də aparıcı rol oynayır və dövlət büdcəsinin əsas gəlir mənbələrindən biridir. Lakin son illərdə bu sahənin ÜDM-dəki payı tədricən azalmaqdadır ki, bu da həm daxili, həm də beynəlxalq amillərlə əlaqələndirilir. Neft-qaz sektoru uzun illər ölkənin iqtisadi inkişafını təmin etmiş, xarici investisiyaların cəlb olunmasına, sənaye və infrastruktur layihələrinin maliyyələşdirilməsinə imkan yaratmışdır. Lakin son beş il ərzində hasilat və ixrac göstəricilərində müşahidə olunan dalğalanmalar sektorun dayanıqlı inkişafı üçün yeni strategiyaların hazırlanmasını zəruri etmişdir.

Son beş ildə neft-qaz hasilatında müəyyən dalğalanmalar müşahidə olunmuşdur. Belə ki, 2020-ci ildə neft-qaz hasilatı əvvəlki ilə nisbətən 7% azalmışdır ki, bunun əsas səbəbi qlobal pandemiya dövründə enerji tələbində yaranan eniş və bazar qiymətlərindəki dalğalanmalar olmuşdur. 2021-ci ildə hasilat 1.8% artmışdır ki, bu da bir sıra yeni layihələrin istismara verilməsi və mövcud yataqlarda istehsalın optimallaşdırılması ilə əlaqədar idi. Lakin 2022-ci ildə hasilatda yenidən 2.7% azalma qeydə alınmışdır. 2023-cü ildə isə bu göstərici 1.7% azalaraq, sektorun uzunmüddətli artım tempində

müəyyən çətinliklərin olduğunu göstərmişdir. 2024-cü ildə hasilat isə 0.5% artmışdır ki, bu artım əsasən yeni qaz layihələrinin həyata keçirilməsi ilə bağlıdır [8].

Hasilatın azalmasının əsas səbəbləri arasında aşağıdakılar xüsusilə diqqətəlayiqdir:

√AÇG yataqlarında təbii resursların tükənməsinin sürətlənməsi – uzun müddət işlənmiş yataqlarda hasilatın azalması təbii prosesdir və bunun qarşısını almaq üçün texnologiyanın inkişaf etdirilməsi və yeni yataqların kəşfi zəruridir.

√OPEC+ kvotaları – qlobal neft istehsalına tətbiq olunan kvotalar Azərbaycanın hasilat həcminə birbaşa təsir göstərir.

√Qlobal enerji bazarındakı volatillik – qiymət dalğalanmaları və ticarət mühitində qeyri-müəyyənlik hasilat planlarının həyata keçirilməsini çətinləşdirir.

√Gələcəkdə daha çox qaz ixracına yönəlmə – Azərbaycan enerji siyasətini diversifikasiya edərək, neftdən daha çox qaz ixracına üstünlük verməyi hədəfləyir ki, bu da hasilat strukturunda dəyişikliklər yaradır.

Azərbaycan son illərdə qaz ixracını əhəmiyyətli dərəcədə artırmışdır. Xüsusilə Cənub Qaz Dəhlizi layihəsinin tam gücü ilə fəaliyyət göstərməsi ölkəni Avropanın enerji təhlükəsizliyində strateji aktora çevirmişdir. Bu layihə vasitəsilə Azərbaycan qazını Avropaya daha səmərəli və təhlükəsiz şəkildə ixrac edə bilir, bunun nəticəsində isə dövlət büdcəsinə əlavə gəlirlər daxil olur və ölkənin sosial-iqtisadi inkişafına müsbət təsir göstərir. Enerji ixracının strukturunda qazın payının artması həm də Azərbaycanın beynəlxalq arenada mövqeyini gücləndirir və xarici investisiyaların cəlb olunmasına imkan yaradır.

Son illərdə qlobal enerji bazarında baş verən dəyişikliklər və yaşıl enerji texnologiyalarının inkişafı Azərbaycanın enerji siyasətində də dönüş yaratmışdır. 2022-ci ildən başlayaraq ölkədə "yaşıl enerji zonaları" layihəsi həyata keçirilmiş, bərpa olunan enerji mənbələrinin istifadəsi genişləndirilmişdir. Xüsusilə külək və günəş elektrik stansiyalarının tikintisi sahəsində ciddi addımlar atılmışdır. Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan regionları isə yaşıl enerjiyə keçid üzrə pilot məkan kimi seçilmişdir. Bu siyasət həm ətraf mühitin qorunmasına töhfə verir, həm də enerji istehsalının dayanıqlığını təmin edir. Eyni zamanda, Azərbaycan gələcəkdə neft-qaz sektorundan asılılığını azaltmaq və iqtisadiyyatı diversifikasiya etmək məqsədini güdür.

Beləliklə, neft-qaz sektoru Azərbaycan iqtisadiyyatında hələ də əhəmiyyətli yer tutur, lakin onun inkişaf dinamikası, hasilat və ixrac göstəricilərindəki dəyişikliklər, habelə yaşıl enerji layihələrinin təşviqi sektorda uzunmüddətli dayanıqlığın təmin olunması üçün yeni strateji yanaşmaların hazırlanmasının zəruriliyini göstərir. Bu da Azərbaycanın qlobal enerji bazarında rəqabət qabiliyyətini artırmaq və iqtisadi inkişafını davamlı etmək üçün vacibdir.

**Qeyri-neft sektorunun inkişafı**

Azərbaycanın iqtisadi siyasətində qeyri-neft sektorunun inkişafı əsas prioritetlərdən biri olmuşdur. Neft-qaz sektoruna olan yüksək asılılığı azaltmaq və iqtisadiyyatın dayanıqlığını artırmaq məqsədilə hökumət qeyri-neft sahələrinə diqqəti artırmışdır. 2019–2024-cü illər ərzində qeyri-neft sektorunun ÜDM-dəki payı 56%-dən 62%-ə yüksəlmiş, bu isə iqtisadi şaxələnmənin və digər sahələrin inkişaf perspektivlərinin əhəmiyyətli dərəcədə artdığını göstərir. Sənaye sahəsi qeyri-neft iqtisadiyyatının lokomotivi hesab olunur və son illərdə emal sənayesi və digər istiqamətlərdə inkişaf müşahidə olunmuşdur. Bununla belə, hələ də istənilən səviyyəyə çatmaq üçün əlavə tədbirlərin görülməsi vacibdir. Emal sənayesinin inkişafı bir neçə əsas istiqamətdə özünü göstərir [2, s.121]:

√Qida sənayesi: Yerli xammaldan istifadə edərək istehsalın artırılması və ixrac potensialının genişləndirilməsi;

√Kimya və plastik məhsullar: Müasir texnologiyaların tətbiqi ilə rəqabət qabiliyyətinin yüksəldilməsi;

√Tikinti materialları istehsalı: Bina və infrastruktur layihələrinə cavab verən məhsulların istehsalının stimullaşdırılması;

√Toxuculuq sənayesi: Yerli və ixrac bazarları üçün məhsul istehsalının artırılması;

√Mebel və ağac emalı: Yerli xammaldan yüksək keyfiyyətli məhsulların istehsalı və ixrac imkanlarının genişləndirilməsi.

Bu sahələrdə aparılan islahatlar və investisiyalar sənaye istehsalının davamlı inkişafını təmin edir.

Qeyri-neft sənayesinin inkişafında sənaye parklarının rolu böyükdür. Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye Parkı, Qarabağ Sənaye Parkı və Mingəçevir Yüngül Sənaye Parkı regionlarda sənaye potensialının mərkəzləri kimi fəaliyyət göstərir. Lakin bu parkların tam potensialını reallaşdırmaq üçün bir sıra tədbirlər tələb olunur:

√Texnologiya transferi: Yeni texnologiyaların ölkəyə gətirilməsi və yerli istehsalda tətbiqi;

√İnnovasiya ekosisteminin gücləndirilməsi: Tədqiqat və inkişaf fəaliyyətlərinin artırılması, startapların dəstəklənməsi;

√Yerli istehsalçıların rəqabət qabiliyyətinin artırılması: Bazar şərtlərinə uyğun istehsal, keyfiyyət standartlarının yüksəldilməsi və ixrac imkanlarının genişləndirilməsi.

Bu tədbirlər qeyri-neft sənayesinin dayanıqlı inkişafına və iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.

Tikinti sektoru ölkənin iqtisadi inkişafında mühüm rol oynayır. Pandemiya dövründə bu sahədə müəyyən daralmalar müşahidə olunmuş olsa da, 2023–2024-cü illərdə tikinti fəaliyyəti yenidən aktivləşmişdir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidənqurulması tikinti sektorunun artım tempini xeyli artırmışdır.

**Sxem 1: Tikinti sektorunun əsas inkişaf sahələri**




***Mənbə:*** *Müəllif tərəfindən tərtib edilmişdir.*

Sxem 1-dən göründüyü kimi mövcud sahələrdə həyata keçirilən tədbirlər nəticəsində tikinti sektorunun ÜDM-dəki payı 4.8%-dən 6.7%-ə yüksəlmişdir. Bu artım həm məşğulluğun artırılmasına, həm də iqtisadi şaxələnməyə mühüm töhfə verir.

**Azərbaycanın iqtisadiyyatında aqrar və xidmət sektorlarının inkişafı**

Son beş ildə Azərbaycanın iqtisadi inkişafında aqrar sahədə sabit, lakin aşağı artım tempi müşahidə olunmuşdur. Statistik göstəricilərə əsasən, 2022–2024-cü illərdə kənd təsərrüfatı sahəsində artım 1,4%–3,4% arasında dəyişmişdir ki, bu da sahənin inkişafında müəyyən dayanıqlığın olduğunu göstərir. Lakin aşağı artım tempi bir sıra struktur problemlərlə bağlıdır. Aqrar sahənin inkişafını məhdudlaşdıran amillərdən biri suvarma sistemlərinin yetərsizliyidir. Ölkənin suvarma infrastrukturu bəzi regionlarda kifayət qədər inkişaf etmədiyindən məhsuldarlıq səviyyəsi aşağı qalır. Bundan əlavə, Azərbaycanda kənd təsərrüfatının böyük hissəsini kiçik təsərrüfatlar təşkil edir ki, bu da iqtisadi effektin və texnoloji yeniliklərin tətbiqini çətinləşdirir.

Aqrar texnologiyalara sərmayələrin məhdudluğu da məhsuldarlığın yüksəlməsinə əngəl yaradır. Həmçinin, logistik infrastrukturun qeyri-kafi olması məhsulların bazara çıxarılmasını çətinləşdirir və əlavə xərclər yaradır. Buna baxmayaraq, son illərdə fəaliyyətə başlayan aqroparklar kənd təsərrüfatının inkişafına yeni imkanlar gətirmişdir. Aqroparklar müasir texnologiyaların

tətbiqinə şərait yaradaraq məhsuldarlığı artırmaqla yanaşı, kənd təsərrüfatı istehsalçılarına bazara çıxış imkanlarını da genişləndirir. Azərbaycanın aqrar ixracında əsas mövqeyi pomidor, fındıq, pambıq, nar və xurma kimi məhsullar tutur. Son beş il ərzində aqrar ixracın ümumi həcmi təxminən 30% artmışdır ki, bu da ölkənin xarici bazarlarda potensialının yüksəldiyini göstərir. Bu artım, həm daxili istehsalın keyfiyyətinin yüksəlməsi, həm də ixrac siyasətinin məqsədyönlü həyata keçirilməsi ilə bağlıdır.

**Xidmət sektorunun genişlənməsi**

Azərbaycan iqtisadiyyatında xidmət sektoru son illərdə ən dinamik sahələrdən birinə çevrilmişdir. Xidmət sektorunun genişlənməsi iqtisadiyyatın şaxələndirilməsinə və qeyri-neft sahələrinin inkişafına töhfə verir. Pandemiya dövründə turizm sektoru ciddi çöküş yaşasa da, 2023–2024-cü illərdə sürətli bərpa prosesi müşahidə olunmuşdur. Xarici turistlərin axını əvvəlki illərlə müqayisədə təxminən 45% artmışdır ki, bu da ölkənin turizm potensialının yüksək olduğunu göstərir. Turizm sektorunun inkişafı yerli əhalinin məşğulluğunu artırmaqla yanaşı, xidmət və ticarət sahələrinə də müsbət təsir göstərir [1. s.57].

Azərbaycanın strateji mövqeyi regionda nəqliyyat-logistika sahəsinin genişlənməsinə şərait yaradır. Zəngəzur dəhlizinin açılması perspektivi, Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin genişləndirilməsi və Şimal–Cənub nəqliyyat dəhlizi üzrə aparılan işlər ölkəni regional tranzit mərkəzinə çevirir. Bu isə həm ixrac potensialını artırır, həm də iqtisadi əlaqələrin şaxələndirilməsinə xidmət edir. Rəqəmsal xidmətlər sahəsi 2020–2024-cü illər ərzində sürətlə inkişaf etmişdir. Elektron ticarət həcmi təxminən üç dəfəyə yaxın artmış, FinTech sektoru genişlənmiş və elektron hökumət xidmətlərinin sayı 700-dən çox olmuşdur. Bu inkişaf ölkədə biznesin rəqəmsallaşmasına, dövlət xidmətlərinin səmərəliliyinin artırılmasına və iqtisadiyyatın şəffaflığının yüksəlməsinə təkan vermişdir.

Ümumilikdə, son beş ildə Azərbaycan iqtisadiyyatında aqrar sahə sabit, lakin aşağı artım tempi ilə inkişaf etmiş, ixrac potensialı isə güclənmişdir. Xidmət sektoru isə sürətli genişlənmə ilə iqtisadi şaxələndirməyə və regional tranzit imkanlarının artırılmasına töhfə vermişdir. Beləliklə, aqrar və xidmət sektorları ölkənin dayanıqlı iqtisadi inkişafında əhəmiyyətli rol oynayır və qarşıdakı illərdə də inkişaf potensialını qorumaqdadır.

**Regionların sosial-iqtisadi inkişafı və Qarabağın bərpası**

Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafında son illərdə mühüm dönüş mərhələsi yaşanmışdır. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurun azad olunması ilə yeni imkanlar yaranmış, regionların bərpası və iqtisadi potensialının artırılması istiqamətində strateji layihələr həyata keçirilmişdir. Bu proses təkcə infrastrukturun bərpasını deyil, həm də sosial-iqtisadi mühitin gücləndirilməsini əhatə edir [7, s.106].

Qarabağın bərpası proqramı 2021–2024-cü illəri əhatə edən genişmiqyaslı layihələri əhatə etmişdir. Azərbaycan dövləti bu dövr ərzində 13 milyard manatdan çox vəsaiti regionun yenidən qurulmasına sərf etmişdir. Proqram çərçivəsində “ağıllı kənd” layihələri, yaşıl enerji zonalarının yaradılması, yeni yolların çəkilməsi, hava limanlarının tikintisi və sənaye zonalarının formalaşdırılması regionun iqtisadi infrastrukturu üçün əhəmiyyətli təşviq rolunu oynamışdır. Bu tədbirlər yalnız iqtisadi fəallığı artırmaqla qalmamış, həm də əhalinin həyat səviyyəsinin yüksəlməsinə və iş imkanlarının genişlənməsinə xidmət etmişdir.

Eyni zamanda, digər regionlarda da iqtisadi inkişaf istiqamətində mühüm addımlar atılmışdır. Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi zonalarında qeyri-neft sektoru sürətlə inkişaf etməkdədir. Sənaye, kənd təsərrüfatı və turizm sahələrinin təşviqi regionların iqtisadi şaxələndirilməsinə və uzunmüddətli dayanıqlığa töhfə verir. Bu proses nəticəsində regionlar yalnız yerli resursların daha səmərəli istifadəsinə malik olmur, həm də ölkənin ümumi iqtisadi dayanıqlığını gücləndirir.

Bütün bu tədbirlər birgə olaraq Azərbaycanın sosial-iqtisadi inkişafında balansın yaradılmasına xidmət edir. Regionların iqtisadi fəallığının artırılması, infrastruktura investisiyaların yönəldilməsi və Qarabağın bərpası yalnız yerli əhalinin rifahını yüksəltmir, həm də ölkənin strateji inkişaf

perspektivlərini möhkəmləndirir. Bu baxımdan, regionların sosial-iqtisadi inkişafı və Qarabağın bərpası Azərbaycan üçün həm iqtisadi, həm də siyasi əhəmiyyət kəsb edən prioritet sahələrdən biri kimi qiymətləndirilir.

**İnsan kapitalı və innovasiya ekosisteminin vəziyyəti**

Azərbaycanın insan kapitalı və innovasiya ekosistemi son illərdə sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur. İnsan kapitalının möhkəmləndirilməsi və innovativ iqtisadiyyatın formalaşdırılması ölkənin dayanıqlı inkişaf strategiyasının əsas prioritetlərindən biridir. Bu proses təkcə təhsil sistemində modernləşməni deyil, həm də yeni texnologiyalara və innovasiyalara yönəlmiş ekosistemin formalaşmasını əhatə edir [3, s.141].

Təhsil və peşə hazırlığı sahəsində əhəmiyyətli tədbirlər görülmüşdür. Peşə təhsili mərkəzləri modernləşdirilərək müasir əmək bazarının tələblərinə cavab verən infrastruktura sahib olmuşdur. Ali təhsil müəssisələrində əmək bazarına uyğun proqramların genişləndirilməsi tələbələrin praktik bacarıqlarını artırmış, işəgötürənlərin tələblərinə uyğun kadr hazırlığını təmin etmişdir. Bununla yanaşı, rəqəmsal bacarıqların artırılmasına dövlət səviyyəsində xüsusi diqqət göstərilmiş, proqram təminatı, süni intellekt və rəqəmsal texnologiyalar sahəsində peşəkarların yetişdirilməsi üçün müxtəlif təşəbbüslər həyata keçirilmişdir. Bu tədbirlər ölkədə innovasiya mədəniyyətinin inkişafına təkan vermişdir.

Eyni zamanda, startap ekosisteminin formalaşması və inkişafı üçün mühüm infrastruktur yaradılmışdır. Azərbaycan innovasiya fondları, inkubasiya mərkəzləri və texnoparklar vasitəsilə yeni ideyaların reallaşmasını dəstəkləyir. Bu qurumlar gənc sahibkarlar və tədqiqatçılar üçün həm maliyyə dəstəyi, həm də bilik və təcrübə mübadiləsi imkanları təqdim edir. Nəticədə ölkə tədricən regional innovasiya mərkəzinə çevrilir və texnoloji sahədə rəqabət qabiliyyətini artırır.

İnsan kapitalı və innovasiya ekosisteminin inkişafı Azərbaycanın iqtisadi və sosial dayanıqlığını möhkəmləndirir. Təhsil sahəsində aparılan islahatlar və startap infrastrukturu gənc nəsillərin bacarıqlarını artırmaqla yanaşı, ölkənin qlobal innovasiya proseslərinə inteqrasiyasını da sürətləndirir. Bu baxımdan, insan kapitalı və innovasiya sahəsində görülən tədbirlər Azərbaycanın gələcək inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi qiymətləndirilir [4, s.37].

**Xarici ticarət və investisiya mühiti**

Azərbaycanın xarici ticarət və investisiya mühiti son illərdə həm iqtisadi dayanıqlığın təminatı, həm də qlobal inteqrasiyanın gücləndirilməsi baxımından mühüm rol oynayır. Ölkənin xarici ticarət balansı ənənəvi olaraq müsbət olmuş, ixrac istiqamətində neft, neft məhsulları, təbii qaz, aqrar məhsullar, kimya sənayesi və tikinti materialları əsas yer tutmuşdur. Qeyri-neft ixracının son beş ildə 45% artması iqtisadi şaxələndirmə siyasətinin uğurunu göstərir və Azərbaycanın yalnız enerji sektoruna deyil, digər sahələrdə də rəqabət qabiliyyətini artırdığını nümayiş etdirir.

**Sxem 2: Əsas ixrac kateqoriyaları**




***Mənbə:*** *Müəllif tərəfindən tərtib edilmişdir.*

İxracın bu geniş spektri ölkənin iqtisadi stabilliyinə töhfə verir və həmçinin yerli istehsalın inkişafı üçün stimul yaradır. Eyni zamanda, xarici sərmayələrin cəlb edilməsi də Azərbaycanın iqtisadi inkişaf strategiyasının əsas tərkib hissəsidir. Stabil valyuta rejimi, siyasi sabitlik, enerji layihələri və biznes mühiti sahəsində aparılan islahatlar xarici investorlar üçün əlverişli şərait yaratmışdır. Bu faktorlar ölkəyə həm birbaşa, həm də portfel investisiyalarının axınını təmin edir.

Lakin hələ də müəyyən sahələrdə əlavə islahatlara ehtiyac mövcuddur. Məhkəmə sisteminin effektivliyinin artırılması, rəqabət mühitinin gücləndirilməsi və korrupsiya ilə mübarizə xarici sərmayələrin daha da artmasına şərait yaradacaq. Bu tədbirlər həyata keçirildikdə, Azərbaycan regional investisiya mərkəzinə çevrilmə potensialını daha da artıracaq.

**NƏTİCƏ**

Azərbaycan iqtisadiyyatı son beş ildə pandemiya, geosiyasi risklər və qlobal iqtisadi qeyri-sabitlik fonunda dayanıqlılığını qorumağı bacarmışdır. Bu dövrdə ölkə həm neft-qaz sektorunun dalğalanmalarına uyğunlaşmış, həm də iqtisadiyyatın şaxələndirilməsi istiqamətində mühüm addımlar atmışdır. Qeyri-neft sektorunun genişlənməsi və xidmət sahələrinin artımı iqtisadi inkişafın davamlılığını təmin edən əsas amillərdən olmuşdur. Eyni zamanda, regionların bərpası, rəqəmsal transformasiya və insan kapitalının gücləndirilməsi ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas sütunlarını təşkil edir.

Neft-qaz sektorunun dəyişkən dinamikasına baxmayaraq, enerji sahəsi gələcəkdə də Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacaqdır. Bununla yanaşı, bu sektorun iqtisadiyyatda payı tədricən qeyri-neft sektorunun inkişafı hesabına balanslaşdırılacaqdır. Beləliklə, enerji resurslarının strateji əhəmiyyəti qorunarkən, ölkənin iqtisadiyyatında daha çox şaxələndirmə və rəqabətqabiliyyət artırılacaqdır.

Azərbaycanın gələcək iqtisadi inkişaf strategiyası bir neçə prioritet istiqamətə əsaslanır. Bunlar arasında iqtisadi diversifikasiya, rəqabətqabiliyyətli sənaye istehsalı, aqrar sahədə modernizasiya, insan kapitalına sərmayə, rəqəmsal transformasiya, yaşıl enerji və ekoloji davamlılıq xüsusi əhəmiyyət kəsb edir. Bu sahələrdə aparılacaq davamlı islahatlar 2030-cu il milli prioritetlərinə uyğun olaraq dayanıqlı, inklüziv və rəqabətqabiliyyətli iqtisadiyyat modelinin formalaşmasını təmin edəcəkdir.

Beləliklə, Azərbaycan iqtisadiyyatı yalnız qlobal çətinliklərə davam gətirməklə kifayətlənmir, həm də strateji inkişaf sahələrini gücləndirərək gələcək illərdə dayanıqlı və şaxələndirilmiş iqtisadi modelin əsasını qoyur.

***İstifadə edilmiş ədəbiyyat:***


**1.** Aslund, A. (2019). Economic Transformation in Post-Soviet States: The Case of Azerbaijan. London: Routledge

**2.** Əliyev, R. (2020). Azərbaycan iqtisadiyyatı: cari vəziyyət və inkişaf perspektivləri. Bakı: Nurlan Nəşriyyatı. - 289 səh.

**3.** Hüseynov, T. (2018). Azərbaycan iqtisadi siyasəti və dayanıqlı inkişaf strategiyaları. Bakı: ADA Universiteti Nəşriyyatı. - 251 səh.

**4.** İsmayılov, V. & Əliyeva, N. (2022). Neft və qeyri-neft sektorunun qarşılıqlı təsiri: Azərbaycan nümunəsi. Bakı: Bakı Biznes Universiteti. - 224 səh.

**5.** International Monetary Fund (IMF). (2022). Azerbaijan: Selected Issues and Statistical Appendix. Washington, DC: IMF.

**6.** Quliyev, S. (2021). Azərbaycanın makroiqtisadi göstəricilərinin təhlili. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti. - 182 səh.

**7.** Məmmədov, F. (2019). Qeyri-neft sektorunun inkişafı və regionların iqtisadi inteqrasiyası. Bakı: Elm və Təhsil. - 206 səh.

**8.** https://www.stat.gov.az/news/index.php?lang=az&id=5100#:~:text=İlkin%20m%C9%99lumatlara%20%C9%99sas%C9%99n%202021,ümumi%20daxili%20m%C9%99hsul%20istehsal%20olunmuşdur
**9.** https://www.imf.org/en/data
**10.** https://data.worldbank.org

**N.S.Ojagli**
*PhD student, Azerbaijan Cooperation University*

**Assessment of the current status of Azerbaijan's economic development**

**Abstract**

*The article assesses the current state of Azerbaijan's economic development over the past 5 years based on macroeconomic stability, changes in the oil and gas sector, expansion of the non-oil industry, and structural transformations in agriculture and services. The study shows that the main driving force of economic growth is the non-oil sector, and the diversification policy has begun to yield real results. The recovery of regions, the growth of digital services, and the revival of tourism have strengthened the overall development dynamics. The article emphasizes the priority role of innovation, human capital, and the green economy for Azerbaijan's long-term development.*

***Keywords:*** *macroeconomic stability, food industry, export potential, economic recession, infrastructure.*